1_Layout 1 29.09.2014 12:36 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 18 (436)

30 sentyabr 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## PREZİDENT İLHAM ƏLİYEV DAXİLİ QOŞUNLARIN QƏBƏLƏ RAYONUNDA YERLƏŞƏN "N" SAYLI HƏRBİ HİSSƏSİNDƏ İNŞA OLUNAN YENİ ŞƏHƏRCİYİN AÇILIŞINDA İŞTİRAK EDİB







**Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Daxili Qoşunların Qəbələdəki "N" saylı hərbi hissəsində inşa olunan yeni şəhərciyin açılışında iştirak edib.**

Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına məlumat verildi ki, hazırda Daxili Qoşunların maddi-texniki bazasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Hərbi hissədə yaradılan şərait də bunun əyani nümunəsidir. 5,5 hektar ərazidə salınan hərbi şəhərcikdə tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Burada beşmərtəbəli qərargah, əsgər yataqxanası və yeməkxanası, nəzarət-buraxılış məntəqəsi və zabit yataqxanası tikilib. Ərazidə geniş sıra meydanı yaradılıb, daxili kommunikasiya xətləri çəkilib, yaşıllaşdırma işləri görülüb. Binalar bütün zəruri mühəndis-kommunikasiya sistemləri ilə təchiz olunub. Həmçinin burada qarovul məntəqəsi, hamam və camaşırxana, qazanxana və transformator yarımstansiyası, gözətçi qülləri tikilib istifadəyə verilib.

Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, şəhərciyin ərazisindəki binaların inşasında milli memarlıq elementlərindən istifadə edilib.

Sonra dövlətimizin başçısı hərbi hissənin qərargahında yaradılan şəraitlə tanış oldu. Qərargahın foyesində Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Silahlı Qüvvələrin inkişafına göstərdikləri diqqət və qayğını, Daxili Qoşunların fəaliyyətini əks etdirən fotostendlər və dövlət atributlarının əks olunduğu lövhələr vurulub. Müxtəlif inzibati otaqların yerləşdiyi birinci mərtəbədə döyüş fəaliyyətinin gücləndirilməsi ilə bağlı təlimatlar əksini tapıb. Yeni inşa olunan qərargah da bütün zəruri kommunikasiya sistemləri, mebel və inventarla təmin olunub.

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev əsgər yeməkxanasında yaradılan şəraitlə də tanış oldu. Hərbi şəhərciyin ərazisində 30 mənzilli zabit yataqxanası da yaradılıb.

Sonda dövlətimizin başçısı Daxili Qoşunların silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində istifadə etdiyi silah və texnika növlərinə baxdı.

**AzərTAc**

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN POLİS AKADEMİYASINDA VƏ AZƏRBAYCAN RESPUBLİKASI FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN AKADEMİYASINDA HƏRBİ KAFEDRALARIN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasında hərbi kafedralar yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**2.1.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.4.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 sentyabr 2014-cü il.

## "CƏNUB" QAZ DƏHLİZİ XXI ƏSRİN MÜQAVİLƏSİ OLACAQ

*Tarixi əhəmiyyətə malik layihə ilk dəfə olaraq enerji resursları ilə zəngin olan Xəzər regionunu Avropa ilə birləşdirəcək*



**Sentyabrın 20-də Səngəçal terminalında dövlət və hökumət başçılarının iştirakı ilə "Cənub" qaz dəhlizinin təməlqoyma mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və mərasimin digər iştirakçıları rəmzi olaraq xüsusi qəliblərin üzərində əl izlərini qoyublar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Türkiyənin energetika və təbii sərvətlər naziri Taner Yıldız, Yunanıstanın Baş naziri Antonis Samaras, Bolqarıstan Prezidenti Rosen Plevneliev, Albaniyanın Energetika naziri Damian Qjiknuri, İtaliyanın İqtisadi inkişaf nazirinin müavini Klaudio de Vinsenti, Monteneqronun Baş naziri Milo Cukanoviç, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ticarət və investisiyalar naziri Lord Livinqston, ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos Hokstayn, bp şirkətinin baş icraçı direktoru Robert Dadli, Azərbaycanın Energetika naziri Natiq Əliyev və ARDNŞ-in prezidenti Rövnəq Abdullayev "Cənub" qaz dəhlizinin təməlinə qoyulacaq ilk borunu imzalayıblar.

Daha sonra "Cənub" qaz dəhlizinin təməli qoyulub.

Sonda dövlət və hökumət başçıları, digər qonaqlar xatirə şəkli çəkdiriblər.

**Təməlqoyma mərasimində Avropa Komissiyasının prezidenti Joze Manuel Barrozu video müraciətində deyib ki, bu gün Azərbaycan Avropaya neft idxalına mühüm töhfə verir. "Cənub" Qaz Dəhlizi əsl geosiyasi layihədir və əminəm ki, o XXI əsrin müqaviləsi olacaq.**

Barrozu əlavə edib: "Eyni zamanda biz "Cənub" Qaz Dəhlizinə münasibətdə irəliləyiş hiss edirik".

Onun sözlərinə görə, bu gün Azərbaycan Avropa İttifaqına nə vaxtsa olduğundan daha yaxındır: "Ölkə iqtisadiyyatı Avropa bazarlarına dərindən inteqrasiya olunub. Münasibətlərimiz hərtərəflidir". O əlavə edib ki, Aİ Azərbaycan ilə müxtəlif sahələrdə əlaqələrin daha da dərinləşməsinə cəhd göstərir.

**"Əsrin Müqaviləsi"nin imzalanmasının 20-ci illiyi münasibəti ilə keçirilmiş tədbirdə və "Cənub" qaz dəhlizinin işə salınmasında iştirak edən ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi nümayəndəsi Amos Hoksteyn isə jurnalistlərə açıqlamasında bildirib ki, ölkəsi "Cənub" qaz dəhlizinə yeni ölkələrin qoşulmasında maraqlıdır: "Biz istəyirik ki, "Cənub" qaz dəhlizinə mümkün qədər çox tərəfdaşlar qoşulsunlar. Amma qərar ABŞ-ın deyil. Ən azından, ABŞ Xəzər regionundan, Azərbaycandan Avropaya qazın nəql edilməsi üzrə layihəni dəstəkləyir. Əgər başqa ölkələr qoşulacaqsa, bu konsorsiumun qərarı olacaq".**

Azərbaycan və ABŞ arasında yaxın strateji münasibətlərin daha sıx şəkildə davam etdirilməsi niyyətində olduqlarını deyən A.Hoksteyn vurğulayıb ki, "Əsrin Müqaviləsi" və "Cənub" qaz dəhlizi Azərbaycan və ABŞ arasında, həmçinin regionda Avropanın, dünya ictimaiyyətinin və milli təhlükəsizliyin energetika təhlükəsizliyinin təminatı sahəsində əməkdaşlıq üçün çox əhəmiyyətlidir.

Məlumat üçün bildirək ki, sentyabrın 1-dək "Şahdəniz-1" layihəsi üzrə Cənubi Qafqaz Boru Kəməri ilə Gürcüstana 4 milyard kubmetr, Türkiyəyə isə 29 milyard kubmetr qaz verilib.

"Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunacaq qazın uzunmüddətli sazişlər əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm addımlar atılıb, Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz boru kəmərlərinin inşasına dair sazişlər imzalanıb. 2018-cü ilin ortalarında istismara veriləcəyi gözlənilən TANAP-ın ilkin nəqletmə gücü 16 milyard kubmetr, 2023-cü ildə 23 milyard kubmetr, 2026-cı ildə isə 31 milyard kubmetr olacaq.

"Əsrin müqaviləsi" Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, 1999-cu ilin iyununda baş vermiş daha bir böyük hadisə - ehtiyatları 1,2 trilyon kubmetr qazdan və 240 milyon ton kondensatdan ibarət olan nəhəng "Şahdəniz" yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycanı dünyaya böyük miqdarda qaz ixrac edən bir ölkə kimi tanıdacaq.

**mayor R.Sarıyev**

2_Layout 1 29.09.2014 12:02 Page 1



# DAXİLİ QOŞUNLARIN KOMANDANI BELARUS RESPUBLİKASINDA RƏSMİ SƏFƏRDƏ OLUB







***Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 16-dan 18-dək Belarus Respublikasında rəsmi səfərdə olub.***

Səfərin birinci günü general-mayor Ş.Məmmədov Belarusun Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Yuri Karayevlə görüşüb. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə Y.Karayev iki ölkənin Daxili Qoşunları arasında yaranmış əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

General-mayor Ş.Məmmədov səmimi və qonaqpərvər görüş üçün təşəkkürünü bildirərək, Belarus Respublikasına bu səfərin əməkdaşlığın uğurlu inkişafına töhfə verəcəyini vurğulayıb.

Səfər çərçivəsində general-mayor Ş.Məmmədov Belarus Respublikasının Daxili İşlər Naziri, milis general-mayoru İqor Şuneviç ilə də görüşüb. Görüş zamanı Daxili İşlər Naziri İ.Şuneviç Belarusun və Azərbaycanın müvafiq qurumları arasında münasibətlərin daha da genişləndirilməsinin vacibliyini qeyd edib.

Səfər proqramına uyğun olaraq, Azərbaycan nümayəndə heyəti Belarus Respublikasının Daxili Qoşunlarının müxtəlif təyinatlı hərbi hissələrində xidməti-döyüş fəaliyyəti ilə tanış olub.

Nümayəndə heyəti, həmçinin Belarusun tarixini əks etdirən muzey kompleksində və bu ölkənin Daxili Qoşunlarının mərkəzi muzeyində olublar.

**Mətbuat Xidməti**

# İLK DƏFƏ OLARAQ DİN DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNİN KURSANTLARI VƏTƏNƏ SƏDAQƏT ANDI İÇDİLƏR

Sentyabrın 12-də Daxili Qoşunların Ali Hərbi Məktəbində ilk dəfə olaraq kursantların təntənəli şəkildə andiçmə mərasimi keçirildi. Tədbir Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədovun Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanına şəxsi heyətin mərasimə düzülməsi barədə məruzəsi ilə başlandı. Daha sonra Ümummilli Lider Heydər Əliyevin, eləcə də ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi.

Kursantlar hərbi anda gətirildikdən sonra ilk olaraq çıxış edən məktəb rəisi general-mayor İ.Məmmədov bu günü Ali Hərbi Məktəbin tarixində baş verən əlamətdar hadisə kimi qiymətləndirərək zabit peşəsinin ən şərəfli peşələrdən olduğunu bildirdi. Qeyd etdi ki, zabit olmaq bütün həyatını Vətənə xidmətə həsr etməklə yanaşı, vətənpərvər, cəsur, savadlı və ədalətli olmaq kimi xüsusiyyətləri özündə birləşdirməyi tələb edir. Bu keyfiyyətləri gələcəyin zabitlərinə aşılamaqdan ötrü Ali Hərbi Məktəbin komandir və müəllim heyəti var gücü ilə çalışacaqdır.

Çıxış zamanı kursantların təhsili üçün Ali Hərbi Məktəbdə yüksək standartlara cavab verən maddi-texniki tədris bazası və məişət şəraitinin yaradıldığı, abadlıq-quruculuq işlərinin bundan sonra da davam etdiriləcəyi vurğulandı. Daxili Qoşunların müasir silah və texnika ilə tam təchiz olunduğunu söyləyən general-mayor İ.Məmmədov torpaqlarımızın düşmən tapdağından azad olunmasında gələcək zabitlərin də öz sözlərini deyəcəklərinə əminliyini ifadə etdi.



Kursant Xəyal Zeynalov isə öz növbəsində bütün yoldaşları adından Vətəni göz bəbəkləri kimi qoruyacaqlarına, lazım gələrsə, onun uğrunda canlarını fəda edəcəklərinə, zabit adına hər zaman layiq olmağa çalışacaqlarına söz verdi.

Valideynlər adından çıxış edən İlqar Məhərrəmov bütün valideynləri təbrik edərək, bu keşməkeşli, lakin müqəddəs və şərəfli yolda hər bir kursanta müvəffəqiyyət arzuladı. Onları mükəmməl hərbi biliklərə yiyələnərək, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi bütün əmrləri layiqincə yerinə yetirməyə və Vətənə sədaqətlə xidmət etməyə çağırdı.

***Daha sonra təbrik və tövsiyələrini çatdıran Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general - mayor Şahin Məmmədov hərbi andiçmə günü münasibəti ilə kursantları səmimi qəlbdən təbrik edərək, bu andan etibarən onların qoşunların bütün şəxsi heyəti kimi ölkə rəhbərliyi tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün məsuliyyət daşıdıqlarını bildirdi. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərdiyi qayğısını xüsusilə vurğulayan Daxili Qoşunlar Komandanı bu diqqətin hər bir hərbi qulluqçunu öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığını söylədi.***

General-mayor Ş.Məmmədov sonda bir daha qoşunların sıralarına yeni qoşulan gənclərin daim Vətənimiz Azərbaycana sədaqət hissi ilə xidmət edəcəklərinə, mükəmməl hərbi biliklərə yiyələnəcəklərinə və dövlətimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişafı və tərəqqisi naminə öz bilik və bacarıqlarını əsirgəməyəcəklərinə inandığını bildirdi.

Təntənəli mərasimdə Türkiyə Respublikasının Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşesi general-mayor Nevzat Taşdelen də iştirak etmişdir.

Tədbir şəxsi heyətin keçidindən sonra Ali Hərbi Məktəbin marşının ifası ilə başa çatdı.

**gizir X.Tağıyeva**

# ALİ HƏRBİ MƏKTƏBDƏ YENİ TƏDRİS İLİNİN AÇILIŞI



***Sentyabrın 15-də DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2014-2015-ci təlim-tədris ilinin açılış mərasimi keçirilmişdir.***

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, eləcə də ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Dövlət himni səsləndirilmişdir.

Mərasimdə çıxış edən Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov yeni tədris ilinin açılışı münasibətilə şəxsi heyətə, pedaqoji kollektivə, eləcə də Ali Hərbi Məktəbə bu il daxil olmuş kursantlara Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun təbrik və tövsiyələrini çatdırmışdır.

Təbrikdə qeyd olunmuşdur ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Respublika Prezidenti cənab İlham Əliyev tərəfindən daha da gücləndirilmiş müstəqil Azərbaycanın Silahlı Qüvvələrində Vətənə xidmət etməkdən şərəfli heç nə ola bilməz. Yalnız Vətəni sevməklə onu qorumaq mümkün deyil, bunun üçün peşəkarlıq da tələb olunur:

"Siz kursantların peşəkar zabit kimi formalaşması üçün ölkə prezidentinin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuş Daxili Qoşunların Ali Hərbi Məktəbində bütün şərait yaradılıb. Hər bir müəllim, komandir dövlətimiz qarşısında öz məsuliyyətini dərk edir, qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir".

Hərbi məktəbin kollektivinə inamın ifadə olunduğu təbrikdə Daxili Qoşunların Komandanı bir daha şəxsi heyəti səmimi qəlbdən təbrik etmiş, onlara yeni dərs ilində uğurlar, müvəffəqiyyətlər arzulamışdır.

Şəxsi heyətin təntənəli keçidindən sonra açılış mərasimi sona çatmışdır.

Qeyd edək ki, yeni tədris ilinin ilk dərsi Ali Hərbi Məktəbin rəisi tərəfindən keçirilmişdir. DİN-in Daxili Qoşunlarının yaranma tarixi, formalaşma dövrü, Qarabağ savaşındakı qəhrəmanlıq nümunələri, o cümlədən qoşunların qarşısında duran vəzifələr barədə kursantlara ətraflı məlumatlar verilmişdir.

**Mətbuat Xidməti**

# GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏSİ DİQQƏT MƏRKƏZİNDƏDİR

***Daxili Qoşunların hərbi qulluqçuları dövlət müstəqilliyimizin qorunub saxlanılmasını, ərazi bütövlüyümüzün təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab edir***

Hər bir ölkənin, dövlətin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhda nə dərəcədə tərbiyə olunmasından və digər amillərdən asılıdır. Bu baxımdan gənclərin cəmiyyətdə layiqli mövqe tutması üçün müvafiq tədbirlərin, programların həyata keçirilməsi son dərəcə vacibdir.

Gənc nəsil eyni zamanda xalqın əsrlər boyu qoruyub saxladığı ənənələri, milli mədəniyyət nümunələrini yaşadır və gələcək nəsillərə ötürür. Bu mənada gənclər dövlətin həm bu günü, həm də onun gələcəyidir.

Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaşın, sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqilliyin üçüncü onilliyinə qədəm basmış Azərbaycana məhz milli şüura malik, vətənpərvər gənclər lazımdır. Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Ulu Öndərimiz müstəqil düşüncə tərzinə sahib vətənpərvər gənclərin yetişdirilməsini dəfələrlə qürur hissi ilə vurğulayırdı: "Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var".

Əlbəttə ki, gənclik hər bir millətin inkişafının təməl daşıdır. Məhz bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Digər tərəfdən, ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı gənclərin aparıcı qüvvəyə çevrilməsindən, intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən asılıdır. Gənclərdə Vətən sevgisi ilə yanaşı cəmiyyətimiz, dövlətimiz üçün əhəmiyyət kəsb edən keyfiyyətlərin olması son dərəcə vacib məsələlərdəndir. Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun qeyd etdiyi kimi, yalnız Vətən sevgisi onu qorumağa kifayət etmir. Bunun üçün peşəkarlıq da tələb olunur.

Bəli, vətənpərvərlik təkcə Vətəni sevməklə bitmir. Vətənpərvərlik Vətən naminə çalışmaq, onu qorumaq bacarığına malik olmaq deməkdir.

Bu gün cəmiyyətimizin bir çox sahələrində, o cümlədən DİN-in Daxili Qoşunlarında xidmət edən hərbi qulluqçuların böyük əksəriyyəti məhz gənclərdir. Gənc hərbi qulluqçularımıza vətənpərvərlik hissi ən dərin, ən müqəddəs duyğulardan biri kimi aşılanmaqdadır.

*- Daxili Qoşunların şəxsi heyəti yaxşı dərk edirik ki, insanın ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə, dövlətə məhəbbətindən qaynaqlanır.*

*- Daxili Qoşunların hərbi qulluqçusu başa düşür ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Yəni vətənpərvərlik hissi insanda qəhrəmanlığın əsasını qoyan amillərdən ən önəmlisidir.*

Bir sözlə, Azərbaycan xalqının qəhrəman oğulları ilə fəxr edən Daxili Qoşunların hərbi qulluqçuları ilk növbədə dövlətimizin müstəqilliyinin qorunub saxlanılmasını, ərazi bütövlüyümüzün təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab edir.

**gizir F.Əlimanova**

3_Layout 1 29.09.2014 12:06 Page 1



*Şəhidlərimiz*

# QƏHRƏMANLIQ SALNAMƏMİZ

***Azərbaycan - ulu babalarımızın bizlərə miras qoyub, ərmağan etdiyi doğma Vətən!..***
***Vətən - qəhrəman oğullarımızın qanı ilə yoğrulmuş müqəddəs torpaq!...***
***Bəli, Vətənimizin minlərlə övladı müqəddəs torpaqlarımızın müdafiəsi uğrunda canlarını qurban verərək şəhidlik zirvəsinə yüksəlib. Azərbaycan tarixinin şanlı səhifələrindən biri olan qəhrəmanlıq salnaməmiz də məhz əbədiyaşar vətənpərvər oğullarımızın - şəhidlərimizin qanı ilə yazılıb ...***
***Daxili Qoşunların hərbi qulluqçularının erməni daşnaklarına qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıq nümunələri də məhz bu qəbildəndir. Şəhid silahdaşlarımızın həyat və döyüş yolunu öyrənmək, eləcə də gələcəyimiz olan gənclərimizə aşılamaq hər birimizin vətənpərvərlik borcudur.***
***Hərb tariximizə qızıl hərflərlə yazılan və gənc nəslə örnək olan belə qəhrəmanlıq nümunələrindən biri də 1993-cü ilin dekabrında, Beyləqan istiqamətində gedən şiddətli döyüşlər zamanı baş verdi...***



**11 dekabr 1993-cü il. Füzuli rayonunun işğalını tam başa çatdırmaqla, digər ərazilərimizi ələ keçirməyi planlaşdıran ermənilər Beyləqan istiqamətində hücumlarını davam etdirirdilər. Daxili Qoşunların hissələri Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığında düşmənin hücumunun qarşısını almaq və onu geri oturtmaq üçün əzmlə vuruşurdu. Çavuş Şahin Abbasovun komandiri olduğu manqa bu döyüşlərdə xüsusi ilə fərqlənirdi.**

...Həmin gün Füzuli rayonunun Böyük Bəhmənli kəndi ətrafında gedən döyüşlər zamanı Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin beş nəfər döyüşçüsü - manqa komandiri çavuş Şahin Abbasov, sıravilər: snayper Yalçın Qəhrəmanov, qumbaraatan Maqsud Daşdıyev, pulemyotçu Fərhad Yusifov və atıcı Siyavuş Rüstəmov özlərini tankın altına ataraq əbədiyyətə qovuşdular. İrəliləyən düşmən tankı qarşısından geri çəkilməyib, ölümün gözünə dik baxan bu döyüşçülər son nəfəsədək vuruşaraq qəhrəmancasına şəhid oldular (Bu manqa qoşunların igid döyüşçüsü kapitan Natiq Şahbazovun komandiri olduğu bölüyün tərkibində idi. Kapitan N.Şahbazovun özü isə bu döyüşdən bir qədər sonra - 1993-cü ilin dekabrın 19-da Füzuli rayonu ərazisində aparılan hərbi əməliyyatlar zamanı şəhid olmuşdur - A.Ə).

Şəhid döyüşçülərimizin xatirəsini əbədiləşdirmək məqsədilə onların həlak olduqları yerdə abidə ucaldılıb. Bu döyüşçülərimizin qəhrəmanlığı barədə qoşunların ehtiyatda olan hərbi qulluqçusu, polkovnik-leytenant Təranə Məmmədovanın müəllifi olduğu və 1999-cu ildə Bakıda nəşr edilən “Oğullar verir ki, can, yaşasın Azərbaycan” adlı kitabında maraqlı yazılar dərc olunub. Kitabda müəllifin “Unutmayın”, Daxili Qoşunların Veteranlar Şurasının katibi, ehtiyatda olan kapitan Yalçın Abbasovun “Unudulmuş qəhrəman” adlı məqalələri, həmçinin döyüşçü-şair Elxan Xəzərin “Dəyanət” adlı poeması bu oğulların şanlı həyat və döyüş yolundan bəhs edir.

**Belə qəhrəman döyüşçülərimizi tanımaq və təbliğ etmək hər birimizin borcudur.**



### Abbasov Şahin Cəmaləddin oğlu

**Çavuş Şahin Abbasov 1974-cü ildə Siyəzən rayonunda anadan olub. 1992-ci ilin aprelin 14-də Şabran RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Vətənə olan müqəddəs borcunu Daxili Qoşunların tərkibində sıravi döyüşçü kimi yerinə yetirməyə başlayıb.**

Lakin bir müddət sonra Şahinin bilik və bacarığı nəzərə alınaraq, onu manqa komandiri təyin edirlər. Çavuş Ş.Abbasovun vətənpərvərlik, cəsurluq, qorxmazlıq və digər müsbət keyfiyyətləri qısa bir zamanda yoldaşları arasında hörmətini daha da artırıb. Arxa cəbhədə təlim keçdikdən sonra, ön mövqedə - son nəfəsinədək müqəddəs torpaqlarımızın müdafiəsində dayanıb.

Qəhrəman silahdaşımızın döyüş yolu Ağdam və Füzuli rayonlarının bir sıra yaşayış məntəqələrindən keçir. Manikli, Baş Güneypəyə, Qazançı, Papravənd, Qalaycılar, Boyəhmədli kəndləri uğrunda gedən vuruşmalarda igid döyüşçümüz düşmənin başına od yağdırıb. Qalaycılar kəndinin müdafiəsi uğrundakı döyüşdə çavuş Ş.Abbasov yaralanmış, bir müddət müalicə aldıqdan sonra isə yenidən ön mövqeyə qayıtmışdır.

1993-cü ilin dekabrın 11-də Füzuli rayonunun Böyük Bəhmənli kəndi ətrafında gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Vətənin igid oğlu, şəhid Ş.Abbasovun məzarı dünyaya göz açdığı doğma Siyəzən şəhərindədir.

Azərbaycan Respublikası Prezidentinin 30 iyun 2002-ci il tarixli fərmanı ilə çavuş Ş.Abbasov döyüşlər zamanı fərqləndiyinə, şücaət və igidlik göstərdiyinə görə “Azərbaycan bayrağı” ordeni ilə (ölümündən sonra) təltif edilmişdir.



### Qəhrəmanov Yalçın Məmmədxan oğlu

**Sıravi Yalçın Qəhrəmanov 1974-cü ildə Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub. 1992-ci il iyulun 15-də Sabirabad RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Xidmətinə Daxili Qoşunların sıralarında sıravi döyüşçü olaraq başlayıb.**

Belə bir deyim var: “Mahir ovçu quşu gözündən vurar”. Döyüşlər zamanı yaxşı snayper kimi düşmənə aman verməyən Yalçın da dəfələrlə açdığı sərrast atəşi ilə daşnakların məkrli planlarını onların gözündə qoymuşdu.

1993-cü ilin soyuq dekabr ayı Vətən, torpaq və yurd həsrəti ilə alışıb-yanan gənc Yalçının qaynar ömrünü xəzana döndərdi... Füzulinin Böyük Bəhmənli kəndi ətrafında gedən döyüş onun son döyüşü oldu... İçdiyi müqəddəs andına son nəfəsinədək sadiq qalan sıravi Y.Qəhrəmanov Vətən uğrunda şəhidlik zirvəsinə ucaldı.

Şəhid Y.Qəhrəmanovun məzarı dünyaya göz açdığı Sabirabad rayonu Qaratəpə kənd qəbiristanlığındadır. İgid döyüşçünün adının əbədiləşdirilməsi məqsədilə Qaratəpə kənd xəstəxanasına onun adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1993-cü il tarixli fərmanı ilə sıravi Y.Qəhrəmanov döyüşlər zamanı fərqləndiyinə, şücaət və igidlik göstərdiyinə görə “Azərbaycan bayrağı” ordeni ilə (ölümündən sonra) təltif edilmişdir.



### Daşdıyev Maqsud Xankişi oğlu

**Sıravi Maqsud Daşdıyev 1973-cü ildə Sabirabad rayonunda dünyaya göz açıb. 1992-ci ilin yanvarın 23-də Sabirabad RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Qoşunların sıravi hərbi qulluqçusu kimi xidmətə başlayan Maqsud, bilik və bacarığına, həmçinin xoş xasiyyətinə görə tez bir zamanda kollektivin sevimlisinə çevrilir. Bir müddət sonra isə qumbaraatan döyüşçü kimi cəbhə bölgəsində Vətənin müdafiəsində dayanır. 11 dekabr 1993-cü il tarixdə Füzuli rayonunun Böyük Bəhmənli kəndi ətrafında gedən döyüşlər sıravi M.Daşdıyevin son döyüşü oldu. Silahdaşları ilə birgə qəhrəmancasına şəhid olan Maqsud əbədiyyət zirvəsini fəth etdi...**

Sıravi Maqsud Daşdıyevin həyat və döyüş yolu barədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında (http://seferberlik.gov.az/rgminfoall/10084.html) qısa məlumat verilib. Saytda şəhid döyüşçünün soyadı “Dostiyev” kimi qeyd olunub. Bundan əlavə, şəhid M.Daşdıyevin Sabirabad rayonunun Muradbəyli kəndində dəfn olunduğu, ailəsinin isə Qasımbəyli kəndində yaşadığı bildirilir.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1993-cü il tarixli fərmanı ilə sıravi M.Daşdıyev döyüşlər zamanı fərqləndiyinə, şücaət və igidlik göstərdiyinə görə “Azərbaycan bayrağı” ordeni ilə (ölümündən sonra) təltif edilmişdir.



### Rüstəmov Siyavuş Qiyas oğlu

**Sıravi Siyavuş Rüstəmov 1973-cü ilin dekabrın 11-də Gəncə şəhərində qulluqçu ailəsində anadan olmuşdur. 1974-cü ilin dekabrında övladının bir yaşını fərəhlə qeyd edən Qiyas kişinin bəlkə də heç ağlına da gəlməzdi ki, qucağına aldığı körpə Siyavuş iyirmi yaşını qəhrəman döyüşçü kimi səngərdə - müstəqil ölkəmizin keşiyində qeyd edəcək və ...**

Sıravi S.Rüstəmov orta təhsilini başa vurduqdan sonra, 1990-cı ilin fevral ayında Gəncə şəhər Dəmir Yol Stansiyasında işə qəbul olunmuşdu. Stansiyada fəhlə işləyən Siyavuş alın təri ilə qazandığı məvacıblə maddi durumu heç də yaxşı olmayan ailəsinə dəstək olmağa çalışırdı.

O, 1992-ci ilin aprelin 16-da Kəpəz (Gəncə) RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Vətənə olan müqəddəs borcunu Daxili Qoşunların sıravi döyüşçüsü kimi yerinə yetirməyə başlayıb.

Sıravi S.Rüstəmovun həyat və döyüş yolu barədə qısa məlumatlara Əhməd İsayevin 2005-ci ildə Bakıda nəşr olunan “Gəncə şəhidləri” kitabında rast gəlmək olar. Müəllif adı qeyd olunan kitabında Siyavuşun xidmət etdiyi alayın iyul ayında Ağdam cəbhəsinə göndərildiyini, həmçinin, igid döyüşçünün Mərzili, Novruzlu, Əhmədabad, Cinli kəndlərinin müdafiəsində, Fərrux dağı uğrunda döyüşdə xüsusi ilə fərqləndiyini bildirir.

11 dekabr 1993-cü il... Doğum gününü səngərdə - mərmi yağışı altında qeyd edən sıravi S.Rüstəmov gözlərini əbədi yumaraq ölümsüzlüyə - şəhidlik məqamına yüksəldi. İgid döyüşçünün məzarı doğma Gəncə şəhərindəki Şəhidlər Xiyabanındadır.

Gəncə şəhərindəki küçələrdən biri şəhid S.Rüstəmovun adını daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1993-cü il tarixli fərmanı ilə sıravi S.Rüstəmov döyüşlər zamanı fərqləndiyinə, şücaət və igidlik göstərdiyinə görə “Azərbaycan bayrağı” ordeni ilə (ölümündən sonra) təltif edilmişdir.



### Yusifov Fərhad Ramazan oğlu

**Sıravi Fərhad Yusifov 1974-cü il martın 15-də Balakən rayonunun Gərəkli kəndində anadan olub. Vətənə olan borcunu Daxili Qoşunların tərkibində sıravi hərbi qulluqçu kimi yerinə yetirib. Fərhad hərbi xidmətə doğma elini, yurdunu sevən və onun uğrunda hər an canından keçməyə hazır olan vətənpərvər bir döyüşçü kimi gəlmişdi. Vətənimizi mənfur düşmənlərdən qorumaq, işğal olunmuş müqəddəs torpaqlarımızı azad etmək başlıca amalı idi igid silahdaşımızın. Məhz buna görə də o, döyüşlərdə pulemyotu ilə düşmənin başına od-olav ələyirdi...**

11 dekabr 1993-cü il. Füzuli rayonunun Böyük Bəhmənli kəndi ətrafında gedən döyüşlər sıravi F.Yusifovun son döyüşü oldu... Neçə-neçə erməni cəlladını məhv edən Fərhad, gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəldi.

Şəhid F.Yusifov Balakən rayon Gərəkli kənd qəbiristanlığında dəfn olunmuşdur. Balakən rayonunun Poştbinə kənd 2 saylı əsas ümumtəhsil məktəbinə igid döyüşçünün adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1993-cü il tarixli fərmanı ilə sıravi F.Yusifov döyüşlər zamanı fərqləndiyinə, şücaət və igidlik göstərdiyinə görə “Azərbaycan bayrağı” ordeni ilə (ölümündən sonra) təltif edilmişdir.

***Daxili Qoşunların sıralarında igid, qəhrəman oğullarımız bu gün də var. Onların hər biri torpaqlarımızı düşmən tapdağından azad etməyə, üçrəngli bayrağımızı Şuşaya, Xankəndinə sancmağa həmişə hazırdır.***

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**baş leytenant A.Əhmədov,**
**DQBİ-nin Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**

## AZƏRBAYCANIN YENİ SNAYPER TÜFƏNGİ



Azərbaycanın hərbi mühəndisləri tərəfindən yaradılmış daha bir snayper tüfəngi ADEX-2014 sərgisində nümayiş olundu. Yeni tüfəng yarımavtomatik iş prinsipinə malikdir. Bu göstəricisinə və çapına görə “Yalquzaq” snayper tüfəngindən fərqlənən yeni silahdan 7.62x54 mm çaplı standart patronlarından atəş açılır.

Snayper tüfənginin uzunluğu atıcının bədən anatomiyasına görə tənzimlənir.

## HƏRBİ XƏBƏRLƏR

### MTLB-lər MODERNLƏŞDİRİLİR



Azərbaycan Müdafiə Sənayesi Nazirliyi tərəfindən MTLB yüngül zirehli yedək maşınlarının modernləşməsi hesabına bu maşının bazasında yeni atəş maşını hazırlanıb.

Aparılmış işlər nəticəsində MTLB-AM-də yeni, ikimüstəvili, elektromexaniki distans idarəetməli döyüş modulu quraşdırılıb. Maşının silah kompleksinə 57 mm çaplı kumulyativ-qəlpəli, idarə olunmayan raketlərdən atəş açan 15 lüləli reaktiv atəş qurğusu, 7.62 mm çaplı PKT pulemyotu, 30x29 mm çaplı AQ-17 tipli avtomatik qumbaraatan və 81 mm-lik tüstü qumbaraatanları daxil edilib. Maşının döyüş dəstinə 75 ədəd 57 mm çaplı raket, PKT pulemyotu üçün 2000 ədəd patron, AQ-17 üçün 300 ədəd qumbara daxildir.

Yerli müəssisədə hazırlanmış reaktiv atəş sistemi 57 mm çaplı raketlərlə 6 km atış uzaqlığına malikdir. Döyüş modulunda yer alan televiziya nişangahı gündüz 1000, gecə isə 600 metrədək məsafədə görmə imkanı təmin edir. Döyüş modulu maşının arxa hissəsində yerləşir. MSN mütəxəssislərinin sözlərinə görə, ehtiyac olarsa qülləni orta bölməyə də yerləşdirmək mümkündür.

### “ORBİTER-3” PUA-nın İSTEHSALI GÖZLƏNİLİR

Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin və “Aeronautics Defense Systems” şirkətinin iştirakı ilə 2011-ci ildə yaradılmış “Azad Systems Co” şirkəti yaxın vaxtlarda “Orbiter-3” pilotsuz uçuş aparatlarının istehsalına başlaya bilər. Bu barədə “Flight Global” nəşrində məlumat dərc edilib.

Müəssisə Azərbaycanda “Orbiter-2” aparatlarını istehsal edir. Hazırda daha bir geniş imkanlara malik PUA versiyası tələb olunur ki, bu da “Orbiter-3” markasıdır. “Orbiter-3” kiçik taktiki PUA-lar əvvəlki aparatlardan daha mühüm və effektiv üstünlüklərə malik olacaq. Bu model katapult vasitəsi ilə havaya qaldırılır, enmə zamanı paraşüt və hava qutusundan istifadə olunur. Uçuş tavanı 18000 fut, sürəti 70 milə qədər, uçuş müddəti 7 saat, uçuş məsafəsi 100 km-dən çoxdur.

### ABŞ ƏSGƏRİNİN YENİ SURSAT ÇANTASI

“TYR Tactical” şirkəti ABŞ Ordusu üçün yeni sursat çantası hazırlayıb.

“HuronMICO” adlanan sursat çantasından M-240 pulemyotuna patronlar birbaşa ötürüləcək. Bunun üçün sursat çantasında xüsusi elastik elevator yaradılıb. Pulemyot üçün çantada 7.62 mm çaplı 500 patron yerləşəcək.

Tənzimlənən bel kəməri və çiyin qayışları ilə təchiz olunan çantanın adapterini dəyişməklə ora 5.56 çaplı patronlar da yükləmək mümkündür.

4_Layout 1 28.09.2014 13:04 Page 1



## BİZİM ŞÜAR:

## “MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!”

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. Çar Rusiyası dağıldıqdan sonra, **1918-ci ildə** Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## DAHİLƏRİN GÖZÜ İLƏ...

Sözlərin gücünü anlamadan, insanların gücünü anlaya bilmərsən.

**Konfutsi**

Cəsarət təhlükə anında ağıl və zəkanın istifadə edilməsidir.

**Platon**

Müvəffəqiyyətin dörd şərti: bilmək, istəmək, cəsarət etmək və susmaq.

**Munte**

Nə qədər bilirsən bil, söylədiklərin qarşındakının anladığı qədərdir.

**Mövlanə**

Heç bir zaman çıxdığın qapını bərk çırpma, geri dönmək istəyə bilərsən.

**Herold**

Malını itirən bir şey itirmişdir, qürurunu itirən çox şey itirmişdir. Lakin cəsarətini itirən hər şeyini itirmişdir.

**Höte**

Böyük beyinlər fikirlər, orta beyinlər hadisələr, kiçik beyinlər isə insanlar haqda danışır.

**Rikover**

İnsanlara ən ədalətli şəkildə paylanan nemət ağıldır. Çünki heç kim ağlından şikayətçi deyil.

**Montaigne**

Ən böyük zəfər insanın özünə hakim olmasıdır.

**Platon**

Saxladığın bir sirr sənin əsirindir. Aşkar etsən, sən onun əsiri olarsan.

**Əli**

## İDMAN

## DAHA BİR SINAQ QƏLƏBƏMİZLƏ BİTDİ



***Daxili Qoşunların əsgəri bütün rəqiblərinə böyük üstünlüklə qalib gələrək, dünya çempionatının qızıl medalını qazanıb***

***Artıq dünya kiqboksçularının ən güclü rəqiblərindən biri kimi tanınan Azərbaycan təmsilçilərinin mötəbər turnirlərdə əldə etdikləri nailiyyətlər də artır. Sevindirici haldır ki, bu nailiyyətlər böyüklərlə yanaşı, yeniyetmə və gənclərimizin yarışlarında da təkrarlanır. Sentyabrın 6-dan 15-dək İtaliyada kiqboksinq üzrə keçirilən yeniyetmə və gənclərin dünya çempionatı da milli yığmamız üçün yeni qələbələr seriyası ilə tamamlandı.***

Vətənə qayıtdıqdan sonra redaksiyamızın qonağı olan DİN İdman Cəmiyyətinin əməkdaşı, milli komandamızın baş məşqçisi, əməkdar məşqçi Hikmət Hacıyev bildirdi ki, ümumilikdə 65 dövlətin yığma komandasının qatıldığı, 2 mindən çox idmançının qələbə uğrunda mübarizə apardığı dünya çempionatı idmançılarımızın fiziki hazırlıqlarının və xarakterlərinin bütün sınaqlardan üzüağ çıxmağa imkan verdiyini təsdiq etdi. Təmsilçilərimiz yarış təcrübəsinin çoxluğundan asılı olmayaraq, hər dəfə rəqiblə qarşılaşdıqda öz imkanları ilə onları təəccübləndirdilər. Ümumilikdə, 2 qızıl, 3 gümüş, 8 bürünc medal qazanan komandamızın yekunlara əsasən bürünc medal qazanmağı da bunun təsdiqidir.

Milimizin heyətində DİN İdman Cəmiyyətinin yetirmələri daha aktiv mövqeləri ilə seçiliblər. Onlardan DİN Daxili Qoşunlarının idman komandasının əsgəri Elmar Qədimov bütün rəqiblərinə böyük üstünlüklə qalib gələrək, dünya çempionatının qızıl medalını qazanıb. O həm də kiqboksinqin kiqlayt versiyası üzrə yarışlara qatılan və ən yüksək nəticə qazanan idmançı kimi ölkə idmanında bir ilkə imza atıb.

Digər təmsilçimiz, ötən çempionatın qızıl medalçısı Emil Mövsümzadə bu dəfə də yüksək nəticə qazanaraq final mərhələsinə qədər irəliləyib və gümüş medal qazanıb.

Yeniyetmələrin yarışında Bakı məktəblisi Heydər Mirzəyev keçirdiyi gərgin görüşlərin birində zədə alsa da, əsl döyüşçü xarakteri sərgiləyərək, qələbə uğrunda sonadək döyüşüb, gümüş medal qazanıb. Nəsimi RPİ 19-cu Polis Bölməsinin rəisi, polis polkovnik-leytenantı Rahib Mirzəyevin övladı olan H.Mirzəyevin bu hünəri çoxumuzun sevincinə səbəb olmaqla, polis əməkdaşlarının xidmətinin nə qədər gərgin olsa da, ailələrində layiqli vətəndaş, bilikli, savadlı, cəsur, vətənimizin adını həmişə uca tutan övladlar yetirməsi üçün çalışdıqlarının daha bir sübutu oldu. Yeri gəlmişkən, Heydər kiqboksinqin daha ağır və təkmil K-İ versiyası üzrə döyüşüb.

Komandamızın bu nailiyyəti əldə etməsi üçün DİN və DQBİ-nin rəhbərliyinin yaxından köməyi olub. İdman Cəmiyyəti əlindən gələni əsirgəməyib.

**polis polkovnik-leytenantı**
**İ.Babayev,**
***"Mübariz Keşikdə"***

## BU GÜNÜN TƏHLÜKƏSİZLİK ÇAĞIRIŞLARI VƏ DAXİLİ QOŞUNLAR

***Yaşadığımız müasir dövrdə beynəlxalq vəziyyətin getdikcə gərginləşməsinin şahidi oluruq. Hərbi münaqişə bölgələrinin sayının artması, terrorçu qurumların din və milli şüarlar altında pərdələnərək aktivləşməsi, aqressiv separatizm meyllərinin özünü daha çox göstərməsi, ekoloji tarazlığın pozulması, təbii fəlakət hallarının intensivləşməsi, yeni təhlükəli virusların yayılması, müxtəlif dərəcəli texnogen qəzaların baş verdiyi coğrafiyanın genişlənməsi və digər amillər bu günün təhlükəsizlik çağırışlarının real mənzərəsini əks etdirir. Bu proseslərin bir qismi ölkəmizin təhlükəsizliyinə təhdid mənbəyi kimi özünü göstərir, digər qismi yerləşdiyimiz regionun yaxınlığında cərəyan edir, müəyyən hissəsi isə ümumilikdə beynəlxalq sabitliyə xələl gətirir.***

Azərbaycan qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalaraq ərazisinin 20 faizini itirsə də, öz dövlətçiliyinin zəifləməsinə, iqtisadiyyatının çökməsinə, milli həmrəyliyinin pozulmasına yol verməyib, ölkədaxili sabitlik etibarlı şəkildə qorunub saxlanılır. Bu gün ölkəmiz Cənubi Qafqaz regionunun ən güclü dövlətidir. Qazanılan bu nailiyyətlər uğurlu dövlət siyasətinin təzahürüdür. Ermənistan isə, əksinə, suverenliyi məhdudlaşdırılan ölkə imicinə malikdir, orada iqtisadiyyat geriləməkdə davam edir, sosial gərginlik isə artır. İşğalçı qonşumuzun demoqrafik vəziyyəti də pisləşib. Belə bir durum Ermənistanın təhlükəsizlik perspektivlərini şübhə altına alır.

Üzləşdiyi təhlükəsizlik çağırışlarının dərindən öyrənilməsi və onlara adekvat reaksiya verilməsi hər bir dövlətin güc strukturları üçün prioritet vəzifədir. Ölkələrin təhlükəsizlik strategiyalarının hazırlanması və onların icrası mexanizmlərinin işlənməsində zamanla uzlaşma, dəyişən gerçəkliklər əsas götürülür. Öz təhlükəsizlik potensialını, müdafiə qüdrətini daim möhkəmləndirən, güc strukturlarının peşəkarlığını davamlı şəkildə təkmilləşdirən ölkələr zaman-zaman ortaya çıxan bu və ya digər təhlükələrə qarşı dayanıqlı mövqe nümayiş etdirə bilir.

Belə ki, qardaş Türkiyə dövləti uzun illərdir PKK terrorundan əziyyət çəksə də, bu bəlaya qarşı effektiv antiterror fəaliyyətini qura bilib. Zaman-zaman antiterror taktikasına korrektələr edən Türkiyənin güc strukturları PKK-nın dayaq bazalarına ciddi zərbələr vurub, hətta bu terror təşkilatının başçısını yaxalamaq kimi uğurlu əməliyyata imza atıblar. Bu gün də terrorla mübarizədə Türkiyə güc strukturları taktiki üstünlüyünü qoruyub saxlayır.

Bu gün dünyada mövcud olan ayrı-ayrı hərbi münaqişə bölgələrinin timsalında bir sıra ölkələrin təhlükəsizlik məsələsində məhz dayanıqsız mövqeyinin şahidi oluruq. Məsələn, İraq kimi özünəməxsus ənənələri, çoxmilyonlu əhalisi, sanballı təbii resursları, zəngin müharibə təcrübəsi olan ölkə “İŞİD” adlanan terrorçu qruplaşmanın əlində aciz qalıb. Əsas özəyini dini radikalların təşkil etdiyi bu qurum kifayət qədər hərbi hazırlığa malikdir. İraqda antiterror yönlü güc strukturlarının olmaması, döyüş qabiliyyətli ordunun yetişdirilməməsi ölkənin bütövlüyünü və sabitliyini zərbə altında qoyub.

“İŞİD”-in azğınlıq etdiyi ölkələrdən biri də Suriyadır. 2011-ci ildən vətəndaş müharibəsinin getdiyi bu ölkədə xaos və humanitar fəlakət hökm sürür. Belə bir xaosun içində dini radikalların, terrorçuların meydana atılması heç də təəccüblü deyil. Vətəndaş müharibəsinin əsas tərəflərinin artıq bu bataqlıqdan çıxmağa gücləri yetmir. Terrorçu qruplaşmalar isə bu qarşıdurmadan bəhrələnərək qanlı cinayətlərini həyata keçirirlər. Oxşar proseslər Liviyanı da öz ağuşuna alıb. Suriya ssenarisinin burada təkrarlandığını görürük.

Digər bir misal Ukrayna ilə bağlıdır. Bu ölkə aqressiv separatizm təhlükəsi ilə üz-üzə qalıb. Silahlı dəstələrə malik separatçılara qarşı ölkənin şərqində aparılan hərbi əməliyyatlar uğursuzluqla nəticələnib. Bu hərbi əməliyyatları aparan güc strukturlarının lazımi dərəcədə peşəkarlığının olmaması, separatçıların tətbiq etdiyi “partizan müharibəsi” taktikasına qarşı mübarizədə təcrübəsizliyi də onlar üçün durumu ağırlaşdırıb.

Sözsüz ki, həm İraq və Suriyada, həm də Ukraynada cərəyan edən proseslərin arxasında geosiyasi maraqların toqquşması, böyük dövlətlərin müdaxiləsi də dayanır. Ancaq ölkələrin özünün bu kimi təhlükələrə hazır olması, daxili güc faktoru ortaya qoyması və hərbi potensialını səfərbər edə bilməsi də münaqişə reallığında az rol oynamır.

Terrorizmin kökləri, məqsədləri və təzahür formaları barədə kifayət qədər məlumat bazası olduğundan, onunla mübarizə vasitələri və resurslarının seçimini proqnozlaşdırmaq çətin deyil. Halbuki, burada da müxtəlif nüanslar ortaya çıxa bilər. Ancaq epidemiya, təbii fəlakət, texnogen qəzalardan irəli gələn təhlükələrin önlənməsi və aradan qaldırılması kimi vəzifələr daha miqyaslı, çoxşaxəli, qeyri-standart, bəzən hətta unikal tədbirlərin görülməsinə bağlıdır.

Bu gün Afrika qitəsinin bəzi ölkələrində "ebola" virusu tüğyan edir. "Ebola"nın mənşəyi barədə birmənalı fikirlər yoxdur. Bu virusdan ölənlərin sayı çoxalıb. Epidemiya ərazilərində zorakılıq faktları da müşahidə olunur. Həmin ölkələrdə karantin tədbirlərinin lazımi səviyyədə təşkil olunmaması, əhali miqrasiyasının, ictimai asayişin tənzimlənməsində boşluqlar onların təhlükəsizliyini təhdid altında saxlayır. Göründüyü kimi, adi gözlə görünməyən viruslar ölkələrin təhlükəsizlik düzənini pozmağa qadirdir.

Bir müddət öncə təbii fəlakət nəticəsində Yaponiyanın “Fukusima” atom elektrik stansiyasında baş vermiş dəhşətli texniki qəza bu ölkənin bütün təhlükəsizlik sistemi üçün ağır sınaqlardan biri idi. Yaponiyada həmin qəzanın nəticələrinin aradan qaldırılması bu gün də davam etdirilir. Təhlükəsizlik sisteminin dayanıqlığı məhz ekstremal vəziyyətlərdə əsl sınağa çəkilir.

**Belə reallıqları və təhlükələri götür-qoy etdikdə ictimai təhlükəsizliyin və sabitliyin nə qədər mühüm faktor olduğu qənaətinə gəlirsən.**

*Respublikamızın daxili işlər orqanları və Daxili Qoşunların ictimai asayişin, xalqımızın əmin-amanlığının təmin olunmasına verdiyi töhfələr dövlət rəhbərliyi tərəfindən müsbət qiymətləndirilib. Hərbi qulluqçularımızın fədakar xidməti ictimaiyyətin dəstəyini qazanıb.*

*DİN Daxili Qoşunların keçdiyi yolda təhlükəsizlik çağırışlarından irəli gələn xidməti-döyüş fəaliyyətinin kifayət qədər ibrətamiz, çoxistiqamətli, mürəkkəb xarakterli məqamları var. Belə zəngin təcrübənin toplanması hər güc strukturuna nəsib olmur. Ona görə də bu təcrübə təlim prosesində, direktiv sənədlərin hazırlanmasında, xüsusi əməliyyat taktikalarının işlənməsində davamlı şəkildə öyrənilməli və nəzərə alınmalıdır.*

*Həmçinin təhlükəsizlik problemləri ilə bağlı beynəlxalq təcrübə, müasir yanaşma və həll modellərinin öyrənilməsi və təhlil edilməsi sistemli şəkildə yerinə yetirilməlidir.*

*Şəxsi heyətə mənəvi-psixoloji hazırlıq prosesində müasir təhlükəsizlik çağırışlarının məğzinin dövlətçilik nöqteyi-nəzərindən izahı vacibdir. Eləcə də təhlükəsizliyə təhdidlər yarandığı vəziyyətdə xidməti-döyüş fəaliyyətinin dayanıqlığına təsir edən mənəvi motiv, düzgün taktiki üsul və fəndlərin, fərdi döyüşçü vərdişləri və məharətinin rolu dolğun aşılanmalıdır.*

*Daxili Qoşunların statusu ilə müəyyən olunmuş vəzifələr çoxşaxəlidir. Bu vəzifələrin xüsusiyyətləri istənilən təhlükəni dəf etməyə daimi peşəkar hazırlığı, yüksək çeviklik qabiliyyətini, çoxfunksional tapşırıqların yerinə yetirilməsi bacarığını önə çəkir. Bu məqamlar həm də şəxsi heyətin əsas döyüş hazırlığı meyarlarını təşkil edir.*

**Yalçın Abbasov,**
**DİN Daxili Qoşunların**
**Veteranlar Şurasının katibi**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000